Yubiley tədbirinin noyabrın 18-də «Gülüstan» sarayında keçirilməsi nəzərdə tutulub.

Ulu öndər Heydər Əliyevin dediyi kimi «Yarandığı ilk dövrlərdə təlim-tərbiyə prosesini Azərbaycan maarifinin gözəl ənənələri üzərində qurmuş Bakı Pedaqoji Texnikumu bu gün də müstəqil Azərbaycanımızın xoşbəxt gələcəyi naminə uğurla çalışır, respublikanın ümumtəhsil məktəblərini və təlim-tərbiyə ocaqlarını pedaqoji kadrlarla təmin edir». 18 elmlər namizədinin, 43 metodist-müəllimin, innovativ treninqlərin seminarların sertifikatını almış 21 müəllimin çalışdığı kollec kollektivinin səmərəli fəaliyyəti, yeni təlim texnologiyalarının intensiv tətbiqi, maddi-texniki bazanın İKT ilə zənginləşdirilməsi öz bəhrəsini verir. Məktəbdə fəaliyyət göstərən «Resurs» mərkəzinin pedaqoji təmayüllü orta ixtisas təhsili məktəbləri üçün mütəmadi olaraq keçirdiyi interaktiv təlim metodlarına dair seminarlar və «açıq dərs»lər, gənclərin milli mənəvi dünyasını zənginləşdirən çoxsaylı tədbirlər bu təhsil ocağının baza məktəbi kimi formalaşmasını təmin edib.

Görkəmli Azərbaycan ziyalıları H. Cavid, Ü. Hacıbəyov, A. Şaiq, C. M. Qənizadə, Camo Cəbrayılbəyli, Mədinə Qiyasbəyli, Əlisöhbət Sumbatzadə, M. Təhmasib, M. Dilbazi, C. Novruz, Ə. Cəfərzadə və onlarla digər görkəmli şəxslərin həyatı, ilkin peşə-ixtisas təhsili, pedaqoji fəaliyyəti uzun illər dahi M. Ə. Sabirin adı ilə məhşurlaşmış bu məktəblə bağlı olub. Zəngin ənənələrə əsaslanan Azərbaycan Dövlət Pedaqoji Kolleci 90 illik fəaliyyəti dövründə daim yeniləşərək ölkə təhsilinin çağdaş inkişaf mərhələsində özünəməxsus yer tutur.